# Ərtoğrol Cavidin musiqi dünyası

**XX əsri Azərbaycan incəsənəti tarixində yeni yüksəliş dövrü kimi səciyyələndirmək olar. Ölkəmizdə ümumi mədəniyyətin yüksəlməsi, ədəbiyyat və incəsənətin bütün sahələrində qazanılan müvəffəqiyyətlər həmin dövrdə musiqinin inkişafına da təkan verirdi. Beləliklə, XX əsr Azərbaycan musiqi mədəniyyətinin səmərəli inkişaf dövrü olmuşdur.**

**Ötən əsr ölkəmiz dünya mədəniyyətinə Üzeyir Hacıbəyli, Müslüm Maqomayev, Qara Qarayev, Fikrət Əmirov, Əfrasiyab Bədəlbəyli, Səid Rüstəmov, Cahangir Cahangirov, Rauf Hacıyev, Tofiq Quliyev, Asəf Zeynallı, Vasif Adıgözəlov, Arif Məlikov və digər görkəmli sənətkarlar bəxş etmişdir.**

Məhz XX əsrdə musiqi mədəniyyətinin inkişafı prosesində bəstəkarlarımızın yaradıcı fəaliyyəti musiqini irəli aparan təkanverici qüvvəyə çevrilərək mədəniyyət tarixində yeni səhifə açdı.

Milli musiqimizin inkişaf tarixindən danışarkən Azərbaycan xalqının böyük dramaturq və yazıçısı Hüseyn Cavidin yeganə oğlu, dahi bəstəkarımız Üzeyir Hacıbəylinin fitri istedada malik sevimli tələbəsi, gözəl şair, istedadlı rəssam, folklorçu və musiqi tədqiqatçısı Ərtoğrol Cavidin adını qeyd etməmək olmaz.

Cavidlər ailəsinin gələcəkdə ədəbiyyat, incəsənət və mədəniyyət tariximizin yeni səhifəsini yazacaq ilk övladı - Ərtoğrol Cavid 1919-cu ilin 22 oktyabrında Bakı şəhərində dünyaya göz açmışdır.

Hüseyn Cavid oğlu olmağın həm xoşbəxtliyini, həm də faciəsini yaşamış Ərtoğrolu həyat çox gənc yaşlarından çətin sınaqlar qarşısında qoymuş və o, bu sınaqlardan ləyaqətlə çıxmışdır.

Böyük bir ədibin ailəsində, coşqun yaradıcılıq abı-havasının mütləq hakim kəsildiyi bir mühitdə böyüyən Ərtoğrol hələ orta məktəb illərindən müxtəlif fənləri dərindən mənimsəmə istedadı ilə seçilirdi. Böyüyüb tərbiyə aldığı şərait və yiyələnməkdə olduğu dünyagörüşü isə onu daha çox ədəbiyyat sahəsinə bağlamaqda idi.

Ədəbiyyata qarşı xüsusi maraq və məhəbbətin təsiri altında demək olar ki ədəbiyyatla nəfəs almaqda olan yeniyetmə Ərtoğrol öz taleyini bu sahə ilə bağlamaq qərarı ilə 1941-ci ildə Azərbaycan Dövlət Pedaqoji Universitetinin Filologiya fakültəsinə daxil olur. Onun səmərəli yaradıcılıq fəaliyyətinin ən qızğın və məhsuldar dövrü də məhz həmin tələbəlik illərinə təsadüf edir.

Tələbə Ərtoğrol ali məktəbdə tədris edilən müxtəlif fənlərin öyrənilməsinə nə qədər gərgin əmək və vaxt sərf etməli olsa da, gərəkli elmi axtarışlara və cəlbedici yaradıcılığa güc və vaxt tapmağı bacarırdı. Zəngin folklor nümunələrinin toplanılması və klassik musiqinin maraq çəkən janrlarında ecazkar musiqilərin bəstələnməsi artıq onun üçün gündəlik və adi həyat vərdişlərinə çevrilmişdi.

Ə. Cavid həyatının ədəbiyyata olan güclü məhəbbətinə bərabər ikinci bir sevgisi onu sehrli əlləri ilə musiqi dünyasının isti qucağına çəkirdi. Odur ki, 1941-ci ildə Azərbaycan Dövlət Pedaqoji Universitetinin Filologiya fakültəsində təhsilini müvəffəqiyyətlə başa vuran gənc Ərtoğrolun elə həmin ildə Azərbaycan Dövlət Konservatoriyasının Bəstəkarlıq fakültəsinə daxil olması təsadüfi deyildi. Hələ yeniyetmə çağlarından musiqi biliklərinə dərindən yiyələnmək üçün öz üzərində səylə çalışan Ərtoğrol Bakının o zaman üçün tanınmış musiqi pedaqoqlarından olan Rudolfdan aldığı musiqi dərsləri və fərdi çalışmaları sayəsində savadlı bir musiqişünas kimi formalaşmağa başlamışdır. Bəstəkarlıq fakültəsində oxuduğu qısa müddət ərzində böyük bəstəkarımız Üzeyir Hacıbəyovdan ərz etdiyi elmi biliklər isə onun peşəkar musiqi yaradıcılığı yolunda etibarlı bələdçisi oldu.

Ailəsində və şəxsi həyatında yaşanan çətinliklərlə üz-üzə qalmaqda olan bu gənc tələbə Konservatoriyada təhsilini müvəffəqiyyətlə davam etdirməklə yanaşı, yeni əsərlər üzərində işləyir, gələcək yaradıcılığı üçün yeni-yeni planlar qurur. Arxiv sənədi kimi saxlanılan Bakı musiqi məktəbinin arayışından məlum olur ki, təhsilini və yaradıcılıq işlərini

davam etdirməklə bərabər musiqi müəllimi kimi fəaliyyət göstərmiş, lakin 1942-ci ilin fevralında ordu sıralarına hərbi xidmətə çağırılması ilə əlaqədar işdən getməli olmuşdur.

Hərbi xidmətdə olduğu müddət ərzində ailə üzvlərinin dolanışacağına yardım imkanı olmayan Ərtoğrol mümkün kömək üçün öz sevimli müəllimi, çətinliklər qarşısında öz xeyirxahlığı ilə həmişə ona dəstək durmuş böyük Üzeyir bəyə üz tutur. Bu müraciətlərin səbəbi onun yazdığı məktublarda öz əksini tapır.

Ə. Cavidin sonrakı məktublarında isə onun səhhətinin ağırlaşması ilə əlaqədar şikayətləri çatdırılır. Atasının başına gətirilən haqsız müsibətlərdən sonra anasının və yeganə bacısının yaşamalı olduğu sıxıntılara görə özünü günahkar görən Ərtoğrol sonrakı həyatını çətin psixoloji sarsıntılar içərisində keçirmişdir.

Səhhətinin daha da ağırlaşması səbəbindən həkimləri tərəfindən hətta yazı yazmasına belə icazə verilməyən Ə. Cavid 1943-cü il oktyabrın 14-də mənəvi ehtiyacdan irəli gələn bir istəklə uzun və coşqun yaradıcılıq axtarışları üçün yaşanan qısa və mənalı ömrünün 24-cü ilində yarımçıq qalmış arzuları ilə əbədiyyətə qovuşdu.

Uzun çəkməyən, ancaq milli amallarla yaşanan Ərtoğrol ömrünün milli ədəbiyyatımıza, incəsənətimizə və mədəniyyətimizə bəxş etdiyi əvəzsiz töhfələr-hələ öyrənilməsinə və tədqiqatına çox ehtiyac duyulan zəngin bir xəzinə, dəyərli bir irsdir. Yaradıcılıq həyatında fəaliyyətinin əhatə etdiyi sahələrin genişliyi, onun istiqamət və təmayül rəngarəngliyi, Ə. Cavid haqqında şair, dramaturq, rəssam, bəstəkar, filoloq və tədqiqatçı kimi bəhs edilməsinə imkan verir.

Ə. Cavid yaradıcılığı olduqca rəngarəng və geniş şaxəli olmaqla milli ədəbi-mədəni irsimizin zəngin səhifələrindən birini təşkil edir.

Yaradıcılıq həyatında fəaliyyətinin əhatə etdiyi sahələrin genişliyi, onun istiqamət və təmayül rəngarəngliyi, Ə. Cavid haqqında şair, dramaturq, rəssam, bəstəkar, filoloq və tədqiqatçı kimi bəhs edilməsinə imkan verir.

Axtarışlar onu göstərir ki, o, ilkin yaradıcılığa şeirlər yazmaqla, gənclik düşüncə və duyğularını poetik lövhələrin ruhuna köçürməklə başlamışdır. Ə. Cavidin şeir yaradıcılığına xronoloji ardıcıllıqla nəzər yetirdikdə, onun həm mövzu seçimi, həm də həmin mövzunun poetik mənalandırılması baxımından bir tərəfdən təbii irəliləyiş, digər tərəfdən isə hansısa sabitlik diqqəti cəlb edir. Sənətkarlıq məziyyətlərinin tədricən güclənməsi fövqündə, o yazdığı şeirlərdə məna, məzmun, problem və ideya ilə yanaşı fərqli ifadə tərzinə, obrazlı deyimə də xüsusi üstünlük verir.

Onun şeir yaradıcılığında əsasən insana qayğı ideyası önə çəkilir. Amma o, bu önəmi patetiklikdən və deklarativlikdən uzaq bir şəkildə ifadə etmiş şeirlərində həyat reallıqlarının ziddiyyətli və mürəkkəb təsvirini vermişdir.

Poeziyasında olduğu kimi nəsr əsərlərində də ictimai-sosial, mənəvi-əxlaqi eləcə də eşqi-məhəbbət mövzularına daha çox müraciət edən Ə. Cavidin yazılma tarixi məlum olmayan nəsr əsərlərinin yalnız mövzu baxımından qruplaşdırılması mümkündür.

Təhlillərdən aydın olur ki, o, nəsr əsərlərində də insanın həm zahiri, həm də iç dünyasına, onun mənəvi-əxlaq aləminə diqqət yetirməklə, insan amilinə xüsusi marağını açıb göstərmişdir.

Sahə müxtəlifliyi və maraq genişliyi çoxşaxəli Ə. Cavid yaradıcılığının zənginliyini səciyyələndirən əsas xüsusiyyətlərdəndir. Belə ki onun çox sevdiyi ədəbiyyata töhfəsi yalnız şeir və nəsr əsərləri yazmaqdan ibarət deyil. O, bu sahəyə həm də bir tədqiqatçı kimi ayaq açmış, milli folklor nümunələrinin toplanması və öyrənilməsi işinə xeyli əmək sərf etmişdir.

Rəssamlıq fəaliyyəti də Ə. Cavid yaradıcılığına rəngarənglik gətirən maraqlı bir mərhələdir.

Ə. Cavidin ədəbiyyata olan xüsusi maraq və qeyri-adi məhəbbətinin bərabərini isə onun musiqiyə olan isti münsibətində görmək olur. Nikbin düşüncələrini və zərif duygularını sözlərlə, boyalarla ifadə edən Ərtoğrolun bu ifadələri musiqi notları üzərinə köçürmək istəyi onu bu sahəyə daha çox bağlayırdı.

Musiqi biliklərini artırmaq üçün əvvəllər də öz üzərində səylə çalışan Ə. Cavidin Azərbaycan Dövlət Konservatoriyasında gördüyü təhsil və milli peşəkar musiqimizin banisi Ü. Hacıbəyovdan aldığı dərslər onun musiqi elminin sirlərinə daha dərindən yiyələnməsində mühüm rol oynayır. Qısa təhsil müddətində o dahi bəstəkarın köməyi ilə xalq musiqimizin əsaslarını səylə öyrənir, yazdığı yeni musiqi əsərləri ilə əlaqədar böyük müəlliminin gərəkli məsləhətlərindən faydalanırdı. Həmin dövrdə musiqi yaradıcılığını böyük coşqu ilə genişləndirməkdə olan tələbə Ərtoğrol heç də sadə olmayan, zövq oxşaya bilən mükəmməl musiqi əsərləri üzərində çalışır ki, bunların da sırasında sevimli və xeyirxah müəllimi Ü. Hacıbəyova həsr etdiyi fortepiano üçün yazılmış variasiyası xüsusi yer tutur.

Ə. Cavidin bəstəkarlıq fəaliyyətini nəzərdən keçirdikdə isə onun instrumental və vokal musiqimizin dəyərli bilicisi və bu janrlarda orijinal musiqi nümunələrinin seçilən müəllifi kimi görürük.

Skripka ilə fortepiano üçün poema (1941), Nizaminin "Sevgili yar gəlmiş idi" qəzəlinə, N. Rəfibəylinin "Eşq olsun", türkmən şairi Kəminənin "Leylanın vəsfi", T. Rasizadənin "Səninlə olaydım" və s. şeirlərinə romans və mahnılar bəstələmişdir. Böyük Vətən müharibəsi başlanarkən "Cəbhədən məktub" simfonik balladasını və bir sıra marşlar yazmışdır. Vətənə və insana məhəbbəti tərənnüm edən geniş yaradıcılıq bacarığı və fenomen musiqi istedadı, Ə. Cavidə nəinki mahnı, romans, simfoniya, poema və ballada kimi musiqiləri yaratmaq, hətta "Şeyx Sənan" və"Məhsəti" kimi həcmli musiqi əsərləri üzərində inamla çalışmaq imkanı verir. Lakin "Şeyx Sənan", "Məhsəti" operaları və bir sıra kamera və instrumental əsərləri yarımçıq qalmışdır.

Bundan əlavə gənc bəstəkarın Məzəli Rəqs, Sözsüz Mahnı, Üç Miniatür, İki Musiqi Lövhəsi əsərləri də musiqi mədəniyyətimizin tarixində əvəzsiz incilərdir. Ə. Cavid yaradıcılığının ümumi səciyyəsinə diqqət yetirdikdə onun yaradıcılığında fərqliliyi, həyata və insana münasibətdə özünəməxsusluğu aydın görmək mümkündür.

Bu əsərlərdə o dövrdə təşəkkül dövrünü yaşayan Azərbaycan bəstəkarlıq məktəbinin üslub axtarışları öz əksini tapmışdır. Ə. Cavidin həm instrumental, həm də vokal əsərlərinin təhlilindən bizə aydın olur ki, o dövrdə bəstələnmiş əsərlərdə musiqi dilinin bütün ünsürləri (məqam, metr-ritm, forma özəllikləri) milli musiqi təfəkkürünün qanunauyğunluqları ilə Avropa bəstəkarlıq məktəbinin ənənələrinin sintezi üzərində qurulmuşdur. Bütün bu cəhətlər bizi belə nəticəyə gətirir ki, Azərbaycan bəstəkarlıq məktəbinin bənzərsiz, özünəməxsus üslubunun formalaşmasında Ə. Cavidin sayca o qədər də çox olmayan əsərlərinin müəyyən payı olmuşdur.

**Beləliklə, 24 illik qısa ömrü ilə uzun ömürlərə bəs edəcək qədər yaradıcılıq yolu keçmiş Ərtoğrol Cavidin ədəbiyyat, incəsənət və mədəniyyətimizə bəxş etdiyi töhfələr heç vaxt dəyərini itirməyəcək zəngin və əvəzsiz bir irsdir.**

**Aygül ƏHMƏDOVA,**
***ADMİU-nun musiqişünaslıq kafedrasının magistri***

## Ədəbiyyat

1. Abbasov Ç. Qasımov Q. Sovet Azərbaycanının musiqi sənətinin oçerkləri. Bakı - 1970.
2. Həşimova S. Ərtoğrol Cavidin ədəbi-elmi irsi. Bakı - 2002.
3. Qasımova S. Bağırov N. Azərbaycan Sovet Ədəbiyyatı. Bakı - 1991.
4. Səfərova Z. Azərbaycan Musiqi elmi (XII-XX). Bakı - 1998.

## Резюме

XX век вошел в историю азербайджанского музыкального искусства как время становления и интенсивного развития Национальной композиторской школы. Определенную лепту в процесс становления своеобразного национального стиля внес и безвременно умедший из жизни Эртогрол Джавид (1919-1943). Деятельност Э. Джавида была многогранной. В историю азербайджанского искусства он вошел как одаренный поет, художник, композитор, фольклорист. В статье анализируются некоторые вокальные и инструментальные произведения композитори. Автор приходит к выводу, что Э. Джавид обладал ярким композиторским талантом, безупречным чувством стиля и формы.

## Summary

XX century was time of formation and development in the history art of Azerbaijan music of the school of national profession of composer. The feature of the national spesific style Cavid's life is surround in the 1919-1943 years. Activities of creative work is very wide of Cavid. He has entered talented poet painter composer specialist in folk-lore as to history of Azerbaijan art. İn the article much at the so vokal and instrumental works of the composer have been analysed. Author arrives at such conclusion style belonging to yourself and Cavid having to form is talented composer. Cavid has had bright composer talent style of clean sense and form.

**Təqdim etdi:** ADMİU-nun musiqişünaslıq kafedrası
**Elmi rəhbər:** sənətşünaslıq namizədi, dosent Kamilə Dadaşzadə